# Heydər Əliyev Mərkəzindən Xankəndiyədək...

## İlham Əliyevin qələbəsi bütöv Azərbaycanda bayram əhvali-ruhiyyəsi yaratdı

4

# Heydər Əliyev Mərkəzindən Xankəndiyədək...

## İlham Əliyevin qələbəsi bütöv Azərbaycanda bayram əhvali-ruhiyyəsi yaratdı

Ölkəmizdə müstəqilliyin bərpasından sonra keçirilən sayca 9-cu prezident seçkiləri dövlətimizin və xalqımızın tarixinə, taleyinə mühüm hadisə kimi yazıldı. Azad, demokratik şəraitdə özünün seçmək və seçilmək hüquqlarından istifadə edən xalqımız növbəti dəfə də seçkilərin yüksək səviyyədə, beynəlxalq standartlara uyğun keçirilməsi üçün siyasi fəallıq göstərdi.

Dünən seçkilərin ilkin nəticələri elan edildikdən sonra Bakıdan Xankəndiyə qədər şahidi olduğumuz yüksək əhvali-ruhiyyənin səbəbləri az deyildi. Çünki xalq qalib Sərkərdəsi İlham Əliyevin yenidən prezident seçilməsini böyük bayram əhvali-ruhiyyəsində qeyd etdi.

Prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsi münasibətilə Dənizkənarı Milli Parkda yürüş keçirilib. Yürüşdə minlərlə vətəndaş iştirak edib. Tədbirə qazilər, müharibə veteranları, şəhid ailələrinin üzvləri, Azərbaycanın Xalq və Əməkdar artistləri qatılıblar.

Heydər Əliyev Mərkəzinin parkına toplaşan minlərlə vətəndaş Zəfər seçkisinin nəticələrini böyük sevinclə qarşılayıblar. Prezident İlham Əliyevin daxili və xarici siyasi xəttini daim dəstəklədiklərini bildiriblər.

Otuz ildən sonra ilk dəfə Qarabağda prezident seçkilərinin keçirilməsi və İlham Əliyevin inamlı qələbəsi Xankəndi şəhərində də böyük coşqu ilə qeyd edilib. Şəhər sakinləri seçkilərin işğaldan azad edilmiş ərazilər daxil olmaqla bütün ölkədə yüksək səviyyədə keçirilməsindən məmnunluqlarını ifadə ediblər.

Şuşa şəhərində də avtomobillərin yürüşü və atəşfəşanlıq olub. Atəşfəşanlıq Qarabağın, qədim Şuşanın səmasını al-əlvan rənglərə boyayıb.

Bütün ölkə ərazisində olduğu kimi, işğaldan azad edilən və yenidən qurulan Füzulidə də sakinlər prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsini bayram əhvali-ruhiyyəsində qeyd ediblər.

Prezident seçkilərində İlham Əliyevin qələbəsi Laçın sakinlərinin də sevincinə səbəb olub. Şəhərin mərkəzi küçələrinə çıxan laçınlılar avtomobillərlə yürüş keçiriblər. Səhər saatlarından səsvermədə mütəşəkkil iştirak edən sakinlər günün sonunda bayram ab-havası ilə şəhərə çıxıblar. Laçının mərkəzi küçələrində milli musiqi sədaları altında avtomobillərin yürüşü olub. Şəhər sakinləri sevinc və qürur hisslərini bir-biriləri ilə bölüşüblər.

Ağdam sakinləri də böyük fərqlə seçicilərin səsini qazanan İlham Əliyevin qələbəsini xüsusi çoşqu ilə bayram ediblər. Ağdam rayonu sakini, keçmiş məcburi köçkün Şamxal Aslanov qeyd edib ki, bütöv Azərbaycanda gedən böyük quruculuq işlərinin uğurla davam etməsi, beynəlxalq səviyyədə Azərbaycanın nüfuzunun daha da artması, ilk növbədə Qarabağın işğaldan azad olunaraq suverenliyimizin tam bərpası xalqımız tərəfindən yüksək qiymətləndirilir. Odur ki, düzgün seçim edərək İlham Əliyevə yüksək inam, coşqu ilə səs verərək növbəti müddətə Prezident seçdi. Bu tarixi qərar da öz bəhrəsini göstərəcək. Çünki keçilən son iyirmi bir illik yol bunu deməyə bizə əsas verir.





















***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



Azərbaycan.- 2024.- 8 fevral, № 27.- S.4.